# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 63** **Bakı şəhəri, 26 fevral 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 14 mart tarixli 125 nömrəli, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" 2016-cı il 4 oktyabr tarixli 375 nömrəli və "Görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə Komissiyanın yaradılması haqqında" 2019-cu il 1 aprel tarixli 137 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respub-likasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 125 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2016, № 4, maddə 791, № 10, maddə 1735; 2017, № 7, maddə 1473; 2018, № 10, maddə 2179; 2019, № 3, maddə 518; 2021, № 4, maddə 426) aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci abzas 1-ci hissə hesab edilsin və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezi-dentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi" üzrə:

1.2.1. 1.2-2-ci bənddə "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin;

1.2.2. 1.5-ci bəndin birinci cümləsində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.2.3. "Qeyd" hissəsi ləğv edilsin.

**2.** "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 oktyabr tarixli 375 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1694; 2019, № 4, maddə 756; 2020, № 5, maddə 653, № 7, maddə 964) aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

"3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezi-dentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.";

2.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi" üzrə:

2.2.1. 6.2-ci bənd üzrə:

1. birinci cümlədə "Nazirliyi (bundan sonra – Nazirlik) tərə-findən vəzifəyə təyin və vəzifədən azad edilən 3 (üç) nəfər" sözləri "Nazirliyinin (bundan sonra – Nazirlik) nümayəndəsi olan 3 (üç)" sözləri ilə əvəz edilsin;

2. ikinci cümlə çıxarılsın;

2.2.2. 7.5.12-ci yarımbənddə "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "Nazirlik yanında Əmlak Məsələləri Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin;

2.2.3. "Qeyd" hissəsi ləğv edilsin;

2.3. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Strukturu"nun "Qeyd" hissəsi ləğv edilsin.

**3.** "Görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə Komissiyanın yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 aprel tarixli 137 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 734, № 8, maddə 1459) 1-ci hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin" sözləri "iqtisadiyyat nazirinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***